1_Layout 1 13.03.2025 18:17 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 5 (693)

17 mart 2025-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# AZƏRBAYCAN-TÜRKİYƏ BİRLİYİ TÜRK DÜNYASINA TÖHFƏDİR

## Ölkəmiz hər zaman türk dövlətlərinin birləşməsinə böyük önəm verib

**“Azərbaycan” qəzetinin müxbiri Yasəmən Musayevanın müəllifi olduğu “Azərbaycan-Türkiyə birliyi türk dünyasına töhfədir” başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**



Ulu Öndər Heydər Əliyevin “bir millət, iki dövlət” kimi xarakterizə etdiyi Azərbaycan-Türkiyə münasibətləri tarixindəki ən yüksək zirvəyə ucalıb. Təməl gücünü ortaq tarixi köklərimizdən, dil, din birliyimizdən alan qardaş ölkələrin ikitərəfli əlaqələri gündən-günə inkişaf edərək yeni mərhələyə qədəm qoyub, strateji müttəfiqlik səviyyəsinə qalxıb.

Danılmaz gerçəklikdir ki, məhz Türkiyə-Azərbaycan birliyi ümumilikdə regionda sülh və təhlükəsizliyin bərqərar olmasına birbaşa təsir göstərən güc amilinə çevrilib. Müasir dünyanın geosiyasi gerçəklikləri fonunda da iki qardaş ölkənin, ümumilikdə türk dünyasının həmrəyliyinin vacib çağırış olması danılmaz həqiqətdir.

Azərbaycanla Türkiyə arasındakı qardaşlıq münasibətləri prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın dostluqları və səyləri sayəsində daha da inkişaf edir.

Martın 5-də Ankarada İğdır-Naxçıvan qaz kəmərinin videobağlantı formatında açılış mərasimində çıxış edən Prezident İlham Əliyev də məhz bu məqama xüsusi vurğu etdi: “Türk dünyasının birləşməsi yolunda əziz Qardaşım, hörmətli Cümhurbaşqanının çox böyük rolu var. Onun liderliyi ilə həm Türkiyədə böyük uğurlar əldə edildi, həm türk dünyasının daha da sıx birləşməsi üçün yeni imkanlar yarandı. Azərbaycan da hər zaman türk dünyasının birləşməsinə çox böyük önəm verirdi və öz tərəfindən bu birliyi təmin etmək, bunu əbədi etmək və ortaq maraqlar və ortaq tarix üzərində əlaqələri qurmaq üçün səylərini əsirgəmirdi”.

### Güc birlikdədir

Azərbaycan və Türkiyə bütün beynəlxalq platformalarda bir-birinə dəstək verir, dövlətçiliyimizə, xalqlarımızın varlığına təhdidlərə qarşı birgə mübarizə aparırlar. 44 günlük Vətən müharibəsi zamanı Türkiyənin siyasi, mənəvi dəstəyini ən yüksək səviyyədə hiss etməsi Azərbaycana əlavə güc verdi. Bu, düşmənlərimizə Azərbaycanın tək olmadığını, onun Türkiyə kimi qardaşı olduğunu göstərdi.

2020-ci il dekabrın 10-da Azadlıq meydanında keçirilən Zəfər paradında qardaş ölkələrin prezidentləri - İlham Əliyev ilə Rəcəb Tayyib Ərdoğanın yan-yana dayanması da ölkələrimizin güc birliyinin təntənəli nümayişi idi.

2021-ci il iyunun 15-də Milli Qurtuluş Günündə Türkiyə ilə Azərbaycan arasında tarixi Şuşa Bəyannaməsi imzalandı. Həmin əlamətdar gün Azərbaycan Prezidenti Türkiyə Prezidentini Qarabağda qarşıladı və mədəniyyət paytaxtımızda iki dövlət arasında müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsi imzalandı. Türk dünyasının qələbə simvoluna çevrilən Şuşa şəhərində imzalanan bu bəyannamə ilə iki ölkə arasında əlaqələr strateji müttəfiqlik səviyyəsinə yüksəldi.

Bəyannamədə təsbit olunub ki, bundan sonra da qardaş ölkələr çətin gündə, xoş gündə bir-birinin yanında olacaqlar. Şuşa Bəyannaməsinin vacib məqamlarından biri də sülh və əməkdaşlığı təşviq etməyə yönəlməsidir.

Eyni zamanda bu tarixi bəyannamə Azərbaycan və Türkiyənin güc mərkəzləri kimi mövqelərinin möhkəmlənməsinə birbaşa zəmin yaradıb. O da təsadüfi deyil ki, bu gün regionla bağlı istənilən layihə məhz Türkiyə və Azərbaycanla məsləhətləşdirilərək həyata keçirilir.

### Dostluğun, qardaşlığın təzahürü

Martın 5-də Ankarada İğdır-Naxçıvan qaz kəmərinin videobağlantı formatında açılış mərasiminin keçirilməsi də Türkiyə-Azərbaycan tarixinə əlamətdar hadisə kimi yazıldı. Bir əsrdən çoxdur ki, qədim yurdumuz Naxçıvan Azərbaycanın əsas hissəsindən ayrı salınıb, Ermənistanın təcavüz və işğal siyasəti nəticəsində bu bölgəmiz hələ də blokada şəraitində yaşayır. Bu baxımdan İğdır-Naxçıvan qaz kəmərinin çəkilməsinin böyük əhəmiyyəti var və bunun sayəsində Naxçıvan qazla bağlı problemdən xilas olacaq.

Sözügedən açılış mərasimində dövlətimizin başçısı İlham Əliyev söylədi ki, bugünkü mərasim bir daha Türkiyə-Azərbaycan birliyini, dostluğunu, qardaşlığını göstərir, onun əyani təzahürüdür.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da öz növbəsində dedi ki, İğdır-Naxçıvan təbii qaz boru kəməri enerji sahəsində daha əvvəlki strateji təşəbbüslərimizi tamamlayacaq, həmçinin Naxçıvan ilə ortaq taleyimizin bir nişanəsi olacaq: “Beləliklə, Naxçıvanın enerji təhlükəsizliyini uzun illər təmin edəcək bir layihəni qardaşımla birlikdə ölkələrimizə qazandırmış oluruq”.

Ümumiyyətlə, Türkiyə və Azərbaycan enerji, nəqliyyat sahələrində Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP kimi neft-qaz boru xətləri, Bakı-Tbilisi-Qars dəmir yolu kimi nəhəng layihələr reallaşdırıblar. Bu isə xalqlarımızın, ölkələrimizin rifah halının yaxşılaşdırılmasına, inkişafına, tərəqqisinə birbaşa təsir göstərir. Həmçinin bu layihələr qlobal əhəmiyyətləri ilə diqqət çəkirlər.

Çərşənbə günü Ankarada videobağlantı formatında keçirilən açılış mərasimində çıxış edən Prezident İlham Əliyev də qeyd etdi ki, bu gün Türkiyəni Azərbaycanla birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu çox gözəl üstünlüklər təmin edir, həm ölkələrimiz üçün, həm daha geniş coğrafiya üçün: “Xüsusilə türk dünyasını birləşdirmək üçün bu nəqliyyat bağlantısının çox böyük mənası, çox böyük faydası var və təbii olaraq, Türkiyə ilə Azərbaycan arasındakı birlik, qardaşlıq bütün türk dünyasına böyük bir töhfədir”.

Göründüyü kimi, Türkiyə ilə Azərbaycan arasında əlaqələr hərtərəfli şəkildə inkişaf edir. Həmçinin iki ölkənin həmrəyliyi ümumilikdə türk dünyasının birgəliyinə, qlobal gücə çevrilməsinə böyük təkan verir. Çünki hazırda dünyada yaranan yeni siyasi, iqtisadi, hərbi qütbləşmələrin qarşısına türkdilli dövlətlərin birləşmiş gücü ilə çıxmağın qalibiyyətə aparan yol olduğu da danılmaz reallıqdır.

# DAXİLİ İŞLƏR NAZİRİ VİLAYƏT EYVAZOV ŞİMALİ MAKEDONİYALI HƏMKARI İLƏ GÖRÜŞÜB







Martın 9-da Şimali Makedoniya Respublikasının daxili işlər naziri cənab Pançe Toşkovskinin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə rəsmi səfərə gəlib.

Nazir Pançe Toşkovski və onu müşayiət edən şəxslər Fəxri xiyabana gedərək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsini ehtiramla anıblar. Sonra Şəhidlər xiyabanına gələn qonaqlar ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın məzarlarını ziyarət edərək “Əbədi məşəl” abidəsinin önünə əklil qoyublar.

Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov şimali makedoniyalı həmkarını və onun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Qonaqları salamlayan general-polkovnik V.Eyvazov Daxili İşlər Nazirliyinin funksiyaları, vəzifələri və fəaliyyət istiqamətləri, mövcud kriminogen durum, insan hüquqlarının qorunması, vətəndaş məmnunluğunun təmin edilməsi sahəsində görülən işlər barədə məlumat verib.

O, transmilli mütəşəkkil cinayətkarlığın əsas növlərindən olan narkotiklərin qanunsuz dövriyyəsi, beynəlxalq terrorçuluq, insan alveri, qanunsuz miqrasiya və kibercinayətkarlıqla mübarizənin diqqət mərkəzində dayandığını, onlara qarşı yalnız birgə səylərlə səmərəli mübarizə aparılmasının mümkünlüyünü vurğulayıb.

Görüşdə kibercinayətkarlıqla mübarizə sahəsində əməkdaşlığın istiqamətləri, təcrübə mübadiləsi və tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

P.Toşkovski rəhbərlik etdiyi qurumun Azərbaycanın Daxili İşlər Nazirliyi ilə əməkdaşlığı genişləndirməkdə, o cümlədən cinayətkarlıqla mübarizə, ictimai asayişin təmini sahəsində əldə olunan qabaqcıl təcrübənin öyrənilməsində maraqlı olduğunu bildirib.

Səfər çərçivəsində qonaqlar DİN-in Daxili Qoşunlarının “N” saylı hərbi hissəsinin, Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzinin, “102” və “Təhlükəsiz şəhər” xidmətlərinin fəaliyyətləri ilə tanış olublar.

**DİN-in Mətbuat xidməti**

2 - 2_Layout 1 14.03.2025 11:07 Page 1



# 12 MART DAXİLİ QOŞUNLAR GÜNÜDÜR!

### Azərbaycan Respublikası Daxili Qoşunların günü elan olunması haqqında

## Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

Azərbaycan Respublikası Daxili Qoşunlarının Vətənin müdafiəsində xidmətlərini və öz vəzifələrini müvəffəqiyyətlə yerinə yetirmələrini qiymətləndirərək **qərara alıram:**

Erməni işğalçılarına qarşı döyüşə başladıqları gün - 12 mart Azərbaycan Respublikasının Daxili Qoşunlarının günü elan edilsin.

**Heydər Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 9 mart 1995-ci il.

## AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEV DAXİLİ QOŞUNLAR HAQQINDA

“Daxili Qoşunların, əsasən cəbhə bölgəsində olan hissənin xidmətini xüsusi qeyd etmək istəyirəm.

Bu gün onlara hörmət və ehtiramımı bildirmək istəyirəm. Onlar orada böyük işlər görürlər. Azərbaycanın torpaqlarını qəhrəmancasına müdafiə edirlər. Belə döyüşçülərin işi hər birimizi sevindirir və böyük hörmət hissi doğurur”.

**(29.04.1994-cü ildə Prezident Aparatında keçirilən müşavirədəki çıxışından)**

## AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN DAXİLİ QOŞUNLARININ ŞƏXSİ HEYƏTİNƏ



Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının yaranmasının növbəti ildönümü münasibətilə sizi, hörmətli veteranlarımızı, respublikamızın ərazi bütövlüyü və suverenliyi uğrunda döyüşlərdə şəhid olmuş hərbi qulluqçuların ailə üzvlərini təbrik edirəm.

Yarandığı gündən şərəfli bir xidmət yolu keçən Daxili Qoşunlar öz məsul vəzifələrini həmişə layiqincə yerinə yetirmiş, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında dövlətçiliyin etibarlı dayaqlarından biri olaraq formalaşmışdır.

Bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində davamlı inkişaf və müasirləşmə yolu ilə inamla irəliləyən qoşunların döyüş hazırlığı, maddi-texniki təchizatı, infrastrukturu, sosial müdafiəsi daha yüksək səviyyədədir. Onun şəxsi heyəti ölkədə ictimai asayişin və daxili təhlükəsizliyin qorunmasında, silahlı cinayətkar dəstələrin zərərsizləşdirilməsində, ümumən qarşıya qoyulmuş bütün tapşırıqların icrasında yüksək peşəkarlığı ilə seçilir.

Xidmətdə, o cümlədən Vətən müharibəsində və antiterror əməliyyatında fərqlənən yüzlərlə hərbi qulluqçunun Möhtərəm Prezident tərəfindən dövlət təltiflərinə layiq görülməsini isə qoşunların fəaliyyətinə verdiyi ali dəyərin əyani ifadəsi kimi xüsusi qeyd edir və əmin olduğumu bildirirəm ki, siz bundan sonra da anda sadiq qalaraq vətəndaşların dinc həyatının, əmin-amanlığının və milli mənafelərin keşiyində əzm və qətiyyətlə dayanacaqsınız.

Bu əlamətdar gündə hamınıza möhkəm cansağlığı, xoşbəxtlik, ailə səadəti, Azərbaycan Respublikasına xidmətdə uğurlar arzulayıram!

**Vilayət Eyvazov**

Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik

11 mart 2025-ci il.

## DÖVLƏTƏ SƏDAQƏTİN, XALQA XİDMƏTİN NÜMUNƏSİ





**Martın 12-də Daxili İşlər Nazirliyinin Daxili Qoşunları yaranmasının növbəti ildönümünü qeyd edir. Bu münasibətlə daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov, Daxili Qoşunların rəhbər heyəti və hərbi qulluqçuları Fəxri xiyabana gedərək Ulu Öndər Heydər Əliyevin xatirəsini ehtiramla yad ediblər.**

**Sonra respublikanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş Vətən övladlarının uyuduğu Şəhidlər xiyabanı ziyarət olunub.**



Həmin gün Daxili Qoşunların Baş İdarəsində təntənəli mərasim keçirilib. Tədbirdə daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iştirak edib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və ölkəmizin suverenliyi, ərazi bütövlüyü uğrunda həlak olmuş hərbi qulluqçuların, eləcə də bütün şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Əlamətdar gün münasibətilə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ən xoş arzularını şəxsi heyətə çatdıran general-polkovnik Vilayət Eyvazov təməli Milli Lider Heydər Əliyev tərəfindən qoyulan ordu quruculuğu ənənələrinin bu gün də uğurla davam və inkişaf etdirildiyini vurğulayıb.

Nazir möhtərəm Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ali diqqət və qayğısı sayəsində Daxili Qoşunların qarşıya qoyulan istənilən döyüş tapşırığını keyfiyyətlə yerinə yetirməyə qadir olan peşəkar birləşməyə, sabitliyin təminatçılarından və dövlətçiliyin dayaqlarından birinə çevrildiyini, maddi-texniki bazasının, kazarma-yaşayış fondunun yaxşılaşdırılması, hərbi hissələrin müasir silah, texnika, xüsusi vasitələrlə təchizatı üçün məqsədyönlü tədbirlər həyata keçirildiyini bildirib. O, DİN-in Daxili Qoşunlarının ölkəmizin ərazi bütövlüyünün təmin edilməsində göstərdiyi şücaəti, respublikamızın hər yerində, o cümlədən işğaldan azad edilmiş şəhər və rayonlarda hərbi qulluqçuların polis əməkdaşları ilə birlikdə ictimai asayişin, təhlükəsizliyin qorunmasında göstərdiyi xidmətlərini cənab Prezidentin yüksək qiymətləndirdiyini məmnunluqla qeyd edib. Bildirilib ki, ölkədə cinayətkarlığa qarşı mübarizədə, ictimai asayişin və hüquq qaydasının qorunmasında, silahlı cinayətkar dəstələrin zərərsizləşdirilməsində, ölkəmizdə keçirilən “COP29” kimi mötəbər beynəlxalq tədbir zamanı qoşunların şəxsi heyəti üzərinə düşən xidməti vəzifələri layiqincə yerinə yetirib.








Nazir xidmətdə fərqlənən hərbi qulluqçuların peşə bayramı ərəfəsində də dövlət mükafatlarına layiq görülməsinin möhtərəm Prezidentin qoşunların şəxsi heyətinin əməyinə verdiyi ali dəyərin və yüksək etimadının əyani ifadəsi olduğunu diqqətə çatdırıb.

Tədbirə yekun vuran nazir V.Eyvazov Daxili Qoşunların qarşıda duran başlıca vəzifələrini qeyd edərək tapşırıq və tövsiyələrini verib.

Sonra xidmətdə fərqlənən bir qrup hərbi qulluqçunun təltif edilməsi barədə daxili işlər nazirinin və nazir müavini - daxili qoşunların komandanının imzaladıqları əmrlər elan olunaraq mükafatlar sahiblərinə təqdim edilib.

Tədbir bədii hissə ilə davam edib.

**DİN-in Mətbuat xidməti**

3_Layout 1 13.03.2025 18:12 Page 1



# VƏTƏNİN, DÖVLƏTÇİLİYİN, TƏHLÜKƏSİZLİYİN KEŞİYİNDƏ FƏDAKAR XİDMƏT

Artıq 33 ildir ki, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları təqdirəlayiq inkişaf yolu keçərək üzərinə düşən vəzifələri uğurla yerinə yetirir. Bu gün Daxili Qoşunlar dövlətçiliyimizin keşiyində qətiyyətlə dayanıb.

Ötən dövrdə Daxili Qoşunlar ölkə rəhbərliyi tərəfindən ona göstərilən yüksək etimadı peşəkar xidməti-döyüş fəaliyyəti ilə doğrultmağa çalışıb. Yaradıldığı gündən daim dövlətin təhlükəsizliyinin qorunması naminə əzmkarlıq göstərən Daxili Qoşunların inkişaf və yüksəliş yolunun təməli xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulub. Ulu Öndərin xüsusi diqqət və qayğısı nəticəsində Daxili Qoşunlar müasir maddi-texniki bazaya, yüksək döyüş hazırlığına malik hərbi quruma çevrilib.



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında Daxili Qoşunların fəaliyyəti əsaslı şəkildə təkmilləşdirilib, döyüş qabiliyyəti daha da gücləndirilib, mövcud infrastruktur yenilənib, müasir tipli silahlar, texnikalar alınıb, şəxsi heyətin xidmət və məişət şəraiti, habelə sosial rifahı daha da yaxşılaşdırılıb.




Daxili Qoşunlar ötən müddətdə ölkə daxilində ictimai təhlükəsizliyin təmin olunması ilə yanaşı, ön cəbhədə düşmənə qarşı döyüş əməliyyatlarında da iştirak edib. Birinci Qarabağ müharibəsi dövründə hərbi qulluqçularımızın od-alovlu səngərlərdə göstərdikləri şücaət və fədakarlıq nümunələri xalqımızın yaddaşında silinməz iz qoyaraq tarixləşib.

Ümummilli Lider Heydər Əliyev tərəfindən 1995-ci il martın 9-da imzalanmış Fərmana uyğun olaraq, 12 mart tarixi Daxili Qoşunlar Günü elan olunub. Bu da təsadüfi deyildi. Məhz müstəqil Azərbaycanın Daxili Qoşunlarının şəxsi heyəti ölkəmizin ərazi bütövlüyü uğrunda erməni işğalçılarına qarşı döyüşlərə ilk dəfə olaraq 1992-ci ilin mart ayının 12-də başlayıb.

Daxili Qoşunların 9 nəfər hərbi qulluqçusu “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülüb. Onlardan 8 nəfəri bu fəxri adla ölümündən sonra təltif edilib. Kapitan Ənvər Arazov, baş leytenant Elşad Yəhyayev, baş leytenant Mətləb Quliyev, baş leytenant Fəxrəddin Nəcəfov, baş leytenant Rövşən Abdullayev, çavuş İqor Makeyev, əsgər Səxavət Məhərrəmov və əsgər Ruslan Muradov Birinci Qarabağ müharibəsi zamanı ərazi bütövlüyümüzün bərpası uğrunda erməni işğalçılarına qarşı döyüşlərdə şəhidlik zirvəsinə ucalıblar. Müharibə sınaqlarından keçərək ağır yaralanmış və əlil olmuş Sahil Məmmədov isə bu gün istefada olan polis polkovnikidir.

Ümumiyyətlə, Birinci Qarabağ müharibəsində ərazi bütövlüyümüzün bərpası uğrunda döyüşlər zamanı Daxili Qoşunların şəxsi heyətindən 682 nəfər həlak olub, 4 nəfər itkin düşüb və 1179 nəfər isə yaralanıb.

Birinci Qarabağ müharibəsi başa çatdıqdan sonra, uzunmüddətli atəşkəs dövründə qoşunların xidməti fəaliyyəti ictimai qaydanın və təhlükəsizliyin təmin olunmasına, silahlı cinayətkarların zərərsizləşdirilməsinə, mühüm dövlət obyektlərinin mühafizəsinə yönəlib, onun təyinatından irəli gələn vəzifələrin icrası ilə bağlı qabaqcıl beynəlxalq təcrübə öyrənilib, xarici ölkələrin müvafiq qurumları ilə hərbi əməkdaşlıq əlaqələri qurulub, geniş quruculuq işləri aparılıb, Daxili Qoşunların tərkibində Hərbi İnstitut, təlim mərkəzləri, helikopter eskadrilyası yaradılıb.



2002-ci ildə Daxili Qoşunların emblemi və döyüş bayrağı haqqında əsasnamələr, habelə onların təsvirləri təsdiq olunub. Hərbi qulluqçularımız təlim və məşğələlərdə yüksək döyüş hazırlığına yiyələnərək torpaqlarımızın işğaldan azad olunması kimi müqəddəs missiyanın yerinə yetirilməsinə hazırlaşıblar.

2020-ci il sentyabrın 27-dən noyabrın 9-dək davam edən Vətən müharibəsi zamanı Daxili Qoşunların hərbi qulluqçuları şərəfli döyüş ənənələrinə sadiq qalaraq, erməni işğalçıları üzərində möhtəşəm qələbənin qazanılmasına öz layiqli töhfələrini veriblər. Ön cəbhənin müxtəlif istiqamətlərində Daxili Qoşunların şəxsi heyəti düşmənə qarşı igidliklə vuruşaraq, torpaqlarımızın azad olunması üzrə döyüş tapşırıqlarını öz canı və qanı bahasına yerinə yetirib. Vətən müharibəsində Daxili Qoşunların şəxsi heyətindən 66 nəfər şəhid olub, 346 nəfər isə yaralanıb.

Azərbaycan Respublikası Prezidentinin 9 dekabr 2020-ci il tarixli müvafiq Sərəncamı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdikləri qəhrəmanlıq nümunəsinə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiklərinə görə Daxili Qoşunların 4 nəfər hərbi qulluqçusu - polkovnik Zəfər Yusibov, polkovnik Füzuli İmrəliyev, polkovnik-leytenant Nicad Bədəlov və mayor Şixamir Qaflanova (ölümündən sonra) “Vətən Müharibəsi Qəhrəmanı” adı verilib.

2023-cü ilin 19-20 sentyabr tarixlərində Azərbaycan Respublikasının Qarabağ iqtisadi zonasında Silahlı Qüvvələrimizin, o cümlədən Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının həyata keçirdikləri lokal xarakterli antiterror tədbirləri zamanı Ermənistan ordusunun tör-töküntülərinə və silahlanmış separatçılara ağır zərbələr vurulub. Uğurla həyata keçirilən bu tədbirlər nəticəsində bölgədə erməni separatizminə son qoyulub. Antiterror tədbirlərində igidlik göstərən Daxili Qoşunların şəxsi heyətindən 12 nəfər şəhid olub, 24 nəfər isə yaralanıb və xəsarət alıb.

Daxili Qoşunların xidməti-döyüş fəaliyyəti Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun və Daxili Qoşunların komandanlığının daim nəzarətindədir. İstər silahlı cinayətkarlara qarşı mübarizədə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsində, istərsə də mühüm dövlət obyektlərinin mühafizəsində şəxsi heyət müsbət nəticələr əldə edib. Əlbəttə ki, bu uğurlar bilikli və bacarıqlı komandir heyətinin rəhbərliyi altında idarəçiliyin, yüksək döyüş hazırlığının və təlimlərin hesabına ərsəyə gəlib.

Daxili Qoşunlarda bu gün ciddi nizam-intizam hökm sürür, şəxsi heyətin mənəvi-psixoloji durumu qənaətbəxşdir. Şəxsi heyət Prezidentə, dövlətə, xalqa məhəbbət və sədaqət ruhunda tərbiyə olunur. Hərbi hissələrin döyüş qabiliyyəti kifayət qədər yüksəkdir.

Daxili Qoşunların keçdiyi yol bir daha sübut edir ki, şəxsi heyət həmişə xalqın əmin-amanlığının, ölkədaxili sabitliyin sadiq keşikçisi olaraq, respublikamızın ərazi bütövlüyünün bərpasında layiqincə iştirak edib. Hərbi qulluqçularımız işğalına son qoyulan torpaqlarımızda polis əməkdaşları ilə birgə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsində yüksək peşəkarlıq göstərərək, dövlət əhəmiyyətli müxtəlif xidməti-döyüş tapşırıqlarının öhdəsindən bacarıqla gəlirlər. Bu da Daxili Qoşunların cəmiyyətdə nüfuzunu artırır və vətəndaşlarımız tərəfindən rəğbətlə qarşılanır.

**mayor Anar Əhmədov**

# HƏRBİ İNSTİTUTDA ELMİ SEMİNAR VƏ VƏTƏNPƏRVƏRLİK GÖRÜŞÜ KEÇİRİLİB



Martın 6-da Daxili Qoşunların Hərbi İnstitutunda Milli Müdafiə Universitetinin Hərbi Elmi-Tədqiqat İnstitutunun redaksiya şöbəsinin rəisi polkovnik Ramil Səfərov və redaksiya şöbəsinin redaktoru mayor Fərahim Eyvazovun iştirakı ilə elmi seminar və vətənpərvərlik görüşü keçirilib. Tədbirə professor-müəllim heyəti və kursantlar qatılıblar.

Seminarın əsas məqsədi hərbi və elmi sahədə bilik və təcrübə mübadiləsini təmin etmək, müasir akademik tədqiqat metodları barədə məlumat vermək, eləcə də vətənpərvərlik ruhunu gücləndirmək olub.

Hərbi elmi şöbənin rəisi vəzifəsini icra edən polkovnik-leytenant Vüqar Şirinov açılış nitqində qonaqları salamlayaraq elmi fəaliyyətin hərbi sahədəki strateji əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, müasir dövrdə hərbi biliklərin və peşəkar hazırlığın inkişaf etdirilməsi üçün elmi araşdırmalara xüsusi diqqət yetirilir.

Daha sonra çıxış üçün polkovnik R.Səfərova söz verilib. Qonaq Vətənə sədaqət, hərbi andın müqəddəsliyi və zabit məsuliyyəti barədə fikirlərini söyləyib. Nəzərə çatdırıb ki, hər bir zabit üçün milli dəyərlərə sadiqlik, peşəkar hazırlıq və elmi biliyin artırılması müasir dövrün tələbləri sırasındadır. Eyni zamanda, elmi tədqiqatların hərbi strategiyaların formalaşmasında və qərar qəbuletmə prosesində oynadığı roldan bəhs edib.

Seminarın elmi hissəsində mayor F.Eyvazov “Elmi məqalələrin yazılması, elmi-praktik tədqiqat metodları və akademik yazı qaydaları” mövzusunda geniş təqdimat keçirib. O, elmi məqalələrin strukturu, akademik üslub və elmi nəşrlərə qoyulan tələblər barədə ətraflı məlumat verib.

Tədbirin davamında qonaqlara elmi və hərbi mövzularda suallar ünvanlanıb, geniş müzakirələr aparılıb.

Sonda qonaqlara minnətdarlıq bildirilib, xatirə şəkli çəkilib.

**Hərbi İnstitutun ştatdankənar müxbir postu**

# “İNTİZAMIN MÖHKƏMLƏNDİRİLMƏSİ, TƏLİM PROSESİNİN KEYFİYYƏTLİ TƏŞKİLİ MÜHÜM AMİLLƏRDİR”

99713 saylı hərbi hissənin komendant bölüyü döyüş hazırlığı, nizam-intizamı ilə fərqlənir, qarşıya qoyulan tapşırıqların müvəffəqiyyətlə icra olunmasında nümunə olmağı bacarır. Bu işdə bölük komandiri baş leytenant Rüfət Əhmədovun xidməti danılmazdır. Gənc olmasına baxmayaraq, ona göstərilən etimadı hər zaman doğrultmağa çalışan zabit tabeliyindəki şəxsi heyətin döyüş və ictimai-siyasi hazırlığının, təlim-tərbiyəsinin, hərbi intizamının, mənəvi-psixoloji durumunun yüksəldilməsi üçün öz bilik və bacarığını əsirgəmir. Hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur. Hərbi qulluqçuların mənəvi keyfiyyətlərini nəzərə alaraq, onların nizamnamələrin tələblərinə, hərbi intizama sözsüz əməl etmələrinə, həmçinin zahiri görkəmlərinə və hərbi geyimlərin düzgün daşınmasına diqqət yetirir.







Xidmətin məsuliyyətindən danışan bölük komandiri bildirdi ki, xidmət Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsinin tələblərinə əsasən təşkil edilir. Şəxsi heyətin döyüş hazırlığı qədər, hərbi intizamın möhkəmləndirilməsi, təlim prosesinin keyfiyyətli təşkili, sağlamlığının qorunması nəzarətdə saxlanılır. Bunun üçün hər gün xidmətə cəlb olunan hərbi qulluqçularla məşğələlər keçirilir, silahların istifadəsi, sökülüb-yığılması zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunur. Səhhətində problemlər aşkarlanan hərbi qulluqçu xidmətdən kənarlaşdırılır.

Bunun nəticəsidir ki, bölük ötən ilin xidməti-döyüş fəaliyyətinin yekunlarına görə əsgəri bölmələr arasında 1-ci yeri tutub.

Bununla yanaşı, döyüş və mənəvi-psixoloji hazırlığın yüksəldilməsi, hərbi qulluqçular arasında yoldaşlıq münasibətlərinin qorunub saxlanılması məqsədilə tərbiyə işi tədbirləri də keyfiyyətlə həyata keçirilir. Bu baxımdan bölük komandirinin tərbiyə işləri üzrə müavini leytenant Əli Əliyevin fəaliyyətindən razı qaldığını söyləyən komandir onun verilən tapşırıqları bacarıqla və vaxtında yerinə yetirdiyini bildirdi.

Hərbi qulluqçuların istirahəti və asudə vaxtlarının səmərəli təşkil olunması da vacib məsələlərdəndir. Bunun üçün hərbi hissədə əlverişli şərait yaradılıb. Belə ki, onlar müxtəlif qəzetləri mütaliə edir, stolüstü oyunlar oynayır və qulaqcıqlar vasitəsilə radioya qulaq asırlar.




Bölük komandiri bölüyün qabaqcıl və döyüş xidmətində xüsusilə fərqlənən hərbi qulluqçularından baş əsgərlər Ziya Ağazadə, Səid Aslanov, əsgərlər Zaur Süleymanov, Mövla Güləliyevin adlarını çəkərək, onların yoldaşlarına nümunə olduqlarını qeyd etdi.

**kapitan Xədicə Hacızadə**

## XİDMƏTİ İTLƏRİN YETİŞDİRMƏ MƏNTƏQƏSİ ÜZƏRİNƏ DÜŞƏN VƏZİFƏLƏRİ UĞURLA İCRA EDİR

Daxili Qoşunların qarşısına qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi üçün xidməti itlərdən geniş istifadə olunur.

67987 saylı hərbi hissədə xidməti ezamiyyətim zamanı xidməti itlərin yetişdirilməsi, təlimi, müxtəlif tapşırıqların yerinə yetirilməsi üzrə istifadə olunması haqqında daha geniş məlumat əldə etmək məqsədilə Daxili Qoşunların Xidməti itlərin yetişdirmə məntəqəsində oldum. Məntəqənin ərazisinin təmizliyi və gigiyena qaydalarına ciddi riayət olunması məntəqə rəisinin və burada xidmət edən hər bir hərbi qulluqçunun diqqət yetirdiyi məsələlərdəndir.





Xidməti itlərin yetişdirmə məntəqəsinin rəisi - müəllim mayor Pərviz Əliyev söylədi ki, şəxsi heyət xidmətini daxili işlər nazirinin müvafiq əmri ilə təsdiq edilmiş “DİN-in Daxili Qoşunlarında xidməti itlərin yetişdirilməsi və xidmətdə tətbiq edilməsi qaydaları haqqında Təlimat”ın və bu təlimatın tələblərinə uyğun DQBİ-nin Qərargahı tərəfindən hazırlanmış “Daxili Qoşunlarda xidməti itlərin saxlanılması və taktiki tətbiqinə dair metodiki vəsait”in tələblərinə əsasən təşkil edir.

Məntəqədə hazırda alman ovçarkası və Belçika malinuası cinsinə mənsub 25 xidməti itin və 6 küçüyün saxlanıldığını qeyd etdi. Məntəqə rəisi onu da əlavə etdi ki, itlərin təlimi böyük bacarıq və təcrübə tələb edir. Hər itin öz təlimçisi var. Təlimçi hər gün itlərin qidasına, təmizliyinə xüsusi diqqət yetirir. İtlə təlimçisinin bir-birinə adaptasiyası da mühüm məsələlərdən biridir.

Qarşıya qoyulan tapşırıqların xidməti itlər tərəfindən müvəffəqiyyətlə yerinə yetirilməsi onlarla keçirilən təlimlərin keyfiyyətindən birbaşa asılıdır. Bu baxımdan təlimçilərin bilik səviyyələrinin yüksək olması və təcrübəyə yiyələnmələri başlıca şərtdir.



Hazırlanmış müvafiq proqrama əsasən, təlimçilərin biliklərinin artırılması məqsədilə həftədə 3 dəfə nəzəri, 3 dəfə praktiki olmaqla ixtisas hazırlığı üzrə məşğələlər məntəqə rəisi tərəfindən keçirilir. Bu məşğələlərdə ümumi və xüsusi təlimin metodikası tədris olunur.

Günün nizam qaydalarına uyğun olaraq xidməti itlərə iki dəfə qulluq göstərilir. Qeyd edək ki, xidməti itlərin sağlamlığının qorunması vacib şərtdir. Bu baxımdan məntəqədə xidməti itlərin sağlıq durumu nəzarətdə saxlanılaraq, profilaktik baytarlıq tədbirləri vaxtlı-vaxtında həyata keçirilir. Hərbi hissənin tibb xidməti tərəfindən müvafiq plana əsasən həftədə bir dəfə məntəqənin ərazisində ümumi profilaktik-gigiyenik tədbirlər görülür.

Xidməti itlər müxtəlif istiqamətlərdə - post-patrul xidmətinin aparılması, qarovul və mühafizə xidməti, kütləvi iğtişaşların qarşısının alınması, silahlı cinayətkarların axtarılması və tutulması, partlayıcı maddələrin və silah-sursatın tapılması üzrə hazırlanaraq təlimlər keçirilir. Qeyd edək ki, beynəlxalq əhəmiyyətli tədbirlər zamanı xidməti itlərin fəaliyyətindən geniş istifadə olunur.

Məntəqədə xidmət edən heyvan təlimçiləri öz işlərini sevərək yerinə yetirirlər. Nümunəvi ximətilə seçilən hərbi qulluqçulardan baş əsgər İmaməddin Şükürəmirli, əsgərlər Cavid Budaqov və Tacəddin Şahmarlının adlarını çəkən mayor Pərviz Əliyev xidmətin uğurlu təşkilində onların hər birinin fəaliyyətinin olduğunu xüsusi olaraq vurğuladı.

Aparılan uğurlu xidmətin nəticəsidir ki, ötən ildə keçirilən beynəlxalq əhəmiyyətli tədbirlər zamanı vəzifələrinin öhdəsindən bacarıqla gələn xidməti itlərin yetişdirmə məntəqəsinin şəxsi heyəti daxili işlər naziri tərəfindən müxtəlif mükafatlara layiq görülüb.

**kapitan Nigar Ağayeva**

## “PEŞƏ VƏRDİŞLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ HƏR ZAMAN DİQQƏTDƏ SAXLANILIR”

99713 saylı hərbi hissənin döyüş hazırlığının qorunub saxlanılmasında xüsusi əhəmiyyət kəsb edən bölmələrdən biri də xüsusi təyinatlı dəstənin istehkam yarımqrupudur. Yarımqrupun əsas vəzifələri təhkim olunmuş ərazidə sahibsiz qalmış şübhəli əşyaların zərərsizləşdirilməsi, partlamamış hərbi sursatların, partlayıcı maddələrin, minaların aşkar olunaraq təhlükəsiz hala gətirilməsi və ya partladılması, eləcə də dövlət əhəmiyyətli tədbirlərin keçirildiyi əraziyə daxil olan avtomobillərdə axtarış apararaq naməlum əşyaların aşkar edilməsidir.



Baş çavuş Aqil Əhmədov istehkam yarımqrupunun komandiri-baş istehkamçısı vəzifəsində xidmət edir. Xidmət etdiyi müddət ərzində özünü nümunəvi hərbi qulluqçu və peşəkar istehkamçı kimi nümayiş etdirməyi bacarıb.



Baş çavuş A.Əhmədov yarımqrupun fəaliyyətindən danışarkən bildirib ki, qarşıya qoyulan tapşırıqların keyfiyyətlə icra edilməsi məqsədilə şəxsi heyətlə mütəmadi olaraq məşğələlər keçirilir. Bundan əlavə, istehkamçıların döyüş hazırlığının ayda iki dəfə hərbi hissə və xüsusi təyinatlı dəstə komandirləri tərəfindən yoxlanıldığını da sözlərinə əlavə edib.

Yarımqrup komandiri nümunəvi hərbi qulluqçulardan baş çavuş Eldəniz Məmmədov, çavuşlar Sərxan Abbaslı, Şıxəli Məmmədov və Abbas Ağazadənin adlarını çəkib.

**kapitan Xədicə Hacızadə**

## ŞƏXSİ HEYƏTİN NORMAYA UYĞUN KEYFİYYƏTLİ QİDALANMASI VACİB TƏLƏBLƏRDƏNDİR

Daxili Qoşunların komandanlığının əsas diqqət yetirdiyi məsələlərdən biri də şəxsi heyətin keyfiyyətli, kalorili yeməklərlə qidalanmasıdır. Çünki hərbi qulluqçuların sağlamlıqlarının qorunması və səhhətlərinin möhkəmləndirilməsi digər amillərlə yanaşı, sağlam qidalanmadan da asılıdır.

16075 saylı hərbi hissənin ərzaq xidmətinin rəisi baş leytenant Nurlan Abdullayev şəxsi heyətin qidalanmasının Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Silahlı Qüvvələrdə ərzaq normalarının bölünməsi Qaydaları”na, daxili işlər nazirinin müvafiq əmri ilə təsdiq edilmiş “Daxili Qoşunlarda ərzaq xidmətinin təşkili haqqında Əsasnamə”yə və digər rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil edildiyini söylədi. Onun sözlərinə görə, xörəklərin keyfiyyətli hazırlanması Daxili Qoşunların və hərbi hissə komandanlığının qarşıya qoyduğu ən vacib tələblərdəndir. Bu baxımdan hazırlanan xörəklərin keyfiyyətinin yüksək olması, sanitar-gigiyenik qaydalara ciddi riayət edilməsi üçün bütün tədbirlər görülür.



Baş leytenant N.Abdullayev şəxsi heyətin qidalanması və gündəlik qida rasionu barədə də məlumat verdi. Bildirdi ki, hərbi qulluqçuların qidalanmasında əsasən milli təamlara üstünlük verilir. Gündəlik olaraq mövsümi salatlar və meyvə şirələri də rasiona daxildir. Xüsusilə kəskin respirator xəstəliklərin yayılmasının qarşısını almaq məqsədilə şəxsi heyətə soğan, sarımsaq kimi faydalı tərəvəzlər verilir. O, şəxsi heyətin qidalanmasının həftəlik bölgü cədvəlinə əsasən təşkil edildiyini bildirdi. Bunun üçün yeməkxanada məsul vəzifəli şəxslər tərəfindən qidalanma rejimi və ərzağın bölüşdürülməsi tərtibatı işlənib hazırlanır.

Zabit görülən işlərdə yeməkxana rəisi baş çavuş Elməddin Alməmmədovun zəhmətini xüsusilə vurğuladı. Onun öz vəzifələrinin öhdəsindən layiqincə gəldiyini, qidaların tələb olunan keyfiyyətdə hazırlanması, gigiyena qaydalarına ciddi əməl olunması üçün əməyini əsirgəmədiyini diqqətə çatdırdı.

Əlavə olaraq, qidaların tələb olunan səviyyədə keyfiyyətlə hazırlanmasında işçi - aşpazlardan Rəsmiyə Heydərova, Şəfəq Nəcəfova və Yazgül Paşayevanın fəaliyyətini müsbət xarakterizə etdi.

**kapitan Şahin Cəfərzadə**

*NÜMUNƏVİ XİDMƏT*

## XİDMƏTDƏ FƏRQLƏNƏN QADIN HƏRBİ QULLUQÇU

Daxili Qoşunların qadın hərbi qulluqçuları xidmətə ciddi münasibətləri, bacarıqları və savadlarına görə fərqlənirlər. Çətin, lakin şərəfli missiyanın daşıyıcıları olan zərif xanımlar xidməti yükün ağırlığını çiyinlərində ləyaqətlə daşımağı bacarırlar.

Bu gün Daxili Qoşunların Hərbi Qospitalı - 12576 saylı hərbi hissəsində xidmət edən baş gizir Gülşən Bəbirova da belə qadın hərbi qulluqçulardan biridir. O, 1984-cü il martın 29-da Bakı şəhərində anadan olub. 1990-2001-ci illərdə Bakı şəhəri Qaradağ rayonunun Ələt qəsəbəsində yerləşən 25 saylı tam orta məktəbdə təhsil alıb. 2001-ci ildə Azərbaycan Maliyyə-İqtisad Kollecinin Gömrükxana işi fakültəsinə qəbul olunub. 2004-cü ildə həmin kolleci bitirən Gülşən 2007-ci ildə 12576 saylı hərbi hissənin qərargahının inzibati bölməsinin məsul icraçısı vəzifəsinə təyin edilib.



Xidmətə başladığı ilk gündən işgüzarlığı və icraçılığı ilə fərqlənən qadın hərbi qulluqçumuz şəxsi heyətin hörmətini qazanıb. 18 illik xidmət təcrübəsi olan baş gizir G.Bəbirova hərbi hissə komandiri tərəfindən müsbət xarakterizə olunur. Funksional vəzifələrinin icrasına məsuliyyətlə yanaşır, özünə qarşı tələbkardır.

Hərbi xidmətilə fəxr edən qadın hərbi qulluqçu kollektivdəki digər qadınlara nümunədir. Məsuliyyətli xidmətinə, yüksək intizamına və hərbi hissədə keçirilən tədbirlərdə fəal iştirak etdiyinə görə hərbi hissənin komandanlığı tərəfindən dəfələrlə mükafatlandırılıb.

**kapitan Nigar Ağayeva**

## SAYIQ, İNTİZAMLI ƏSGƏR

16075 saylı hərbi hissənin komendant bölüyünün intizamı, layiqli xidmətilə seçilən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından biri də əsgər Siyaş İsmayılovdur. Bölük komandiri baş leytenant Zaur Mehtiyev tərəfindən müsbət xarakterizə olunan əsgərimiz qısa zamanda digər hərbi qulluqçulara nümunə olmağı bacarıb.



Əsgər S.İsmayılov 2000-ci il dekabrın 15-də Gədəbəy rayonunun Arıqdam kəndində anadan olub. 2007-2018-ci illərdə doğma kəndinin tam orta məktəbində təhsil alıb. 2018-2022-ci illərdə Bakı Dövlət Universitetində kimya mühəndisi ixtisasına yiyələnib. 2022-2024-cü illərdə Azərbaycan Dövlət Neft və Sənaye Universitetində ali təhsilin magistratura səviyyəsini kimya mühəndisi ixtisası üzrə bitirib.

2024-cü ilin iyul ayında 16073 saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmətə başlayıb. Həmin ilin avqust ayından xidmətini 16075 saylı hərbi hissənin komendant bölüyünün atıcısı vəzifəsində layiqincə davam etdirir. O, daim üzərində çalışır, özünə qarşı tələbkardır. Xidmətə ciddi münasibətilə seçilir. Əzmkarlığı ilə yanaşı, əsgər yoldaşlarına köməklik göstərməsi onun müsbət xüsusiyyətlərindəndir.

Əsgər S.İsmayılov Daxili Qoşunlarda xidmətilə fəxr edir, komandirləri tərəfindən verilən tapşırıqları dəqiqliklə yerinə yetirir.

**16075 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

## PEŞƏKAR SÜRÜCÜ-ATICI

Daxili Qoşunların sıralarında hərbi xidmət keçən kiçik çavuş Mənsur Əsədov məsuliyyətlə, vicdanla vəzifələrini yerinə yetirir. Hər zaman seçdiyi peşə ilə fəxr edən hərbi qulluqçu bu illər ərzində bir dəfə də olsun vəzifələrinin icrasına səthi yanaşmayıb.



O, 1989-cu ilin avqust ayının 24-də Goranboy rayonunun Tatarlı kəndində doğulub. Orta təhsilini 1996-2007-ci illərdə doğma kəndində Sərxan Ocaqverdiyev adına tam orta məktəbdə alıb. 2007-ci ilin oktyabr ayından 2009-cu ilin aprel ayınadək Müdafiə Nazirliyinin Gədəbəy rayonunda yerləşən “N” saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. 2013-cü ildə 17072 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin atıcı-sanitarı vəzifəsinə müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub.

2016-cı ildən kiçik çavuş M.Əsədov həmin hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin sürücü-atıcısı vəzifəsində xidmətini ləyaqətlə davam etdirir.

Funksional vəzifələrinin icrasına vicdanla yanaşan hərbi qulluqçu peşəkarlıq vərdişlərinin təkmilləşdirilməsi yönündə daim öz üzərində çalışır, verilən tapşırıqları yüksək səviyyədə yerinə yetirmək üçün əlindən gələni əsirgəmir.

**17072 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### Polşa Cənubi Koreyadan 6 milyard dollar dəyərində əlavə K2 tankları alacaq

Cənubi Koreya aprel ayının əvvəlində Polşaya K2 tanklarının tədarükünə dair daha bir müqavilə imzalayacaq. “Poliqon” “Yonhap” xəbər agentliyinə istinadən bildirir ki, imzalanacaq 9 trilyon von (6,2 milyard ABŞ dolları) dəyərindəki müqaviləyə əsasən, Cənubi Koreyanın Polşaya əlavə 180 ədəd K2 tankı tədarük etməsi gözlənilir.

Xatırladaq ki, Cənubi Koreya 2022-ci ilin avqustunda 180 ədəd K2 tankı, 212 ədəd



K9 özüyeriyən artilleriya qurğusu (ÖAQ) və 48 ədəd FA-50 təlim-döyüş təyyarəsinin tədarükü üçün Polşa ilə 12.4 milyard dollar dəyərində ilk müqaviləni imzalayıb.


*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, R.Hüseynov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000